# AĞDAM ƏDƏBİ MƏCLİSİ TƏQDİM EDİR



*Mən aşiq, ana torpaq,*
*Bələndi qana torpaq.*
*Şəhidə oğul deyib,*
*Aldı qoynuna torpaq.*

**ALMAZ ALIQIZI**

## QARABAĞLIYAM

Olmasın "pişiklə-ətin" misalı,
Gözümdə olmadı dünyanın malı.
Xudam mükafatın versin halalın,
Canımla, qanımla elə bağlıyam,
Şairə Almazam, Qarabağlıyam.

Sinəmi şum etdim şeirlərimə
Göz yaşımı səpdim, hər bir sətrimə
Qızıl balıq heç düşmədi bəxtimə.
Vətənə bağlıyam, elə bağlıyam.
Şairə Almazam, Qarabağlıyam.

Vətənçün ağladım, illər boyunca,
Tanrı harayıma çatdı, duyunca
Məramım olmuşdur hər şeydən uca,
Canımla, qanımla elə bağlıyam
Şairə Almazam, Qarabağlıyam.

Əzəldən gəlibdir bu dünya belə,
Bülbül nalə edib sevdiyi gülə.
Şair də gəlibdir sözlərə kölə,
Vətənə bağlıyam, elə bağlıyam.
Şairə Almazam, Qarabağlıyam.

Almazam, yurdumu daim sevmişəm,
Sevinci əkmişəm, qəmi biçmişəm.
Nahaqdan keçmişəm, haqdan keçmişəm,
Əzəldən yurduma, elə bağlıyam,
Şairə Almazam, Qarabağlıyam!

***21.10.2021.***

## ÇALIN TELLİ SAZI

*(nəğmə)*

Dağların döşündə əlvan çiçəklər,
Xalı tək çəmənə sərilibdilər.
Səhəri açırlar burda bülbüllər.
Çalın telli sazı, əllər oynasın,
Tökülsün gül üzə, tellər oynasın.

Bulaq zümzüməsi, dağ şəlaləsi,
Dağlar valeh edir, vallah, hər kəsi.
Lalə ətri verir torpaq nəfəsi,
Çalın telli sazı, əllər oynasın!
Tökülsün gül üzə, tellər oynasın!

Muğam pərdə-pərdə elə yayılsın,
Baxdıqca düşmənin bağrı yarılsın.
Almaz gözəllikdən ilhamın alsın,
Vətənin hüsnünə nəğmələr yazsın.
Çalın telli sazı, əllər oynasın,
Könüllər sevinsin, tellər oynasın!

***16.10.2021***

## QURBANAM, ANA!

Zəhmət ilə yeddi övlad yetirən,
Odu, közü kirpiyilə götürən,
Ömür-gün yoldaşın erkən itirən,
Çoxlu zəhmətinə qurbanam, ana!
Yatdığın torpağa qurbanam, ana!

Kənd yerində işlər bitməz, tükənməz,
Nə qədər çalışar, yoruldum deməz,
Ana nə çəkdiyin uşaqlar bilməz.
Çoxlu zəhmətinə qurbanam, ana,
Yatdığın torpağa qurbanam, ana!

Yalvarardım sənə, ana, bir dincəl,
Aldı başın üstün, qəfil kor əcəl.
Olan bizə oldu, nə olar, dön gəl,
Mən yorğun canına qurbanam, ana,
Yatdığın torpağa, qurbanam, ana!

Bəzən inanmıram, mən yoxluğuna,
Girib otaqları gəzirəm, ana...
Burdayam deyəssən, ay anan qurban,
Ümid bağlayıram arzularıma...
Yatdığın torpağa qurbanam, ana!

Almazam, bezmişəm həyatdan daha,
Ümidim qalıbdı bu son zamana.
Qolunda uyuyum, yenə çal layla,
Yenə də əzizlə, sən məni ana
Yatdığın torpağa qurbanam, ana!

***11.10.2021***

# RÜBAİLƏR

İnsan yaraşığı əzəmət, vüqar,
Duruşu, baxışı qəlbi oxşayar.
Ruhu təmiz olan, dağ tək ucalar,
Qəlbində gül açar hər bir arzular!

***

Qoy düşsün qəlbinə günəşin nuru,
Alnın açıq olsun, bulaqdan duru.
Hər zaman həyatda qismətin olsun
İnsanlıq, sağlaqmlıq, bir də qürurun!

***

Məni bu dünyaya bəxş edən ana,
Bəs nədən qoymusan sən yana-yana?
Əl açıb yalvardım Qadir Allaha,
Anamı yenidən gətir cahana!

***

Yaradan izniylə dünyaya gəldik,
Atadan, anadan çox sey öyrəndik
Bizim də izimiz Haqqın ilhamı
Tanrı dərgahına üzü ağ gəldik!

***04.10.2021***

# DÜŞMƏYƏSƏN!

Elə yaşa bu dünyada,
Namərdlərin, alçaqların,
Qəlbi qara insanların
Qınağına düşməyəsən!

Qoy yaradan ayırmasın
Yaxşıları öz yarından.
Elə sev ki, sən sonradan
Yar gözündən düşməyəsən!

Damarında axsın qanın,
Uca olsun adın-sanın.
Elə yaşa, hər nadanın
Ayağına düşməyəsən.

Zirvəsində qar dağların,
Suyundan iç bulaqların.
Almaz, çalış, yaltaqların
Məclisinə düşməyəsən!

***28.09.2021***

# EVİMİZƏ GEDƏRƏM!

Dərd-qəmimi şələ kimi götürüb,
Anam olsa, kəndimizə gedərəm!
Açılmayan qapımızı açmağa
Anam olsa, kəndimizə gedərəm!

İllər məni çox yorubdu, nə qalıb?
Dərd-qəmimi ürəyimdə toplayıb.
Həsrət çəkib ayrılıqdan yuxalıb,
Anam olsa, kəndimizə gedərəm!

Qucaqlayıb gözlərindən öpərəm,
Göz yaşımı sinəsinə tökərəm.
Uşaq kimi qol qaldırlb süzərəm
Anam olsa, kəndimizə gedərəm!

Göytəpədən, Sarcalıya enərəm,
Mən elimi qarış-qarış gəzərəm!
Uşaq kim sevinərəm, gülərəm,
Anam olsa, evimizə gedərəm!

Anam ilə dərdlərimi bölməyə
Bişirdiyi göy kətəsin yeməyə.
Ötənlərə bu günümü verməyə,
Anam olsa, kəndimizə gedərəm!

Almazam, həsrətdən gözlərim dolub,
Atamın, anamın məzarın tapıb,
Ziyarət eyləyib, dua oxuyub!
Anam olsa, kəndimizə gedərəm!

***24.09.2021***